2
2023

# GÖYƏRÇİN

İSSN-0207-4710



RAFİQ YUSİFOĞLU

## BİR AĞ, NƏHƏNG QUŞDU BU

Bir ağ, nəhəng quşdu bu,
Qanadlanıb uçdu bu!
Kirpiklərini qırpdı,
Qanadlarını çırpdı…
Əsdi soyuq küləklər,
Uçuşdu ağ lələklər.

Üstündən keçdi bir az,
Hər yan oldu bəmbəyaz…
Qışdı, qışdı, qışdı bu,
Bir köçəri quşdu bu.
O qonaqdı yazacan…
-Bəs gələcək yaz haçan?
-Nə vaxt güllər açacaq,
Qış uzağa uçacaq…

## BİZ YUXUDA OLANDA

Biz yuxuda olanda
Gəlibdir şəhərə çən.
Saatımız yatmayıb,
İşləyib səhərəcən…

Yağıb, yağıb sübhəcən,
Dizə qədər qar çıxıb.
Qatı duman elə bil
Gecəyə qahmar çıxıb.

Əqrəblərin qolunu
Duman bağlayammayıb.
Onları öz yolundan
Heç nə saxlayammayıb…

## BULUD ƏLƏKLƏR

Qar ələnir aramsız,
Əsir sərin küləklər.
Onların əllərində
Nəhəng bulud ələklər…

Xeyir-bərəkət yağır,
Dəyirmanlar dolacaq.
Qar un olmasa belə,
Unumuz bol olacaq…

## İLK QAR

Göydən gələn qara bax,
Dörd tərəfi bürüyür.
Ancaq çox heyf ki, qar
Yerə düşüb əriyir.

Təkcə evin damında
Adda-budda ağarır.
Fatimə çölə baxıb,
Atasını çağırır.

Deyir: - Bir bax, qış gəlir,
Adam soyuqdan donur.
Qar hər yeri bəyənmir,
Damın üstünə qonur…

## QAR NİYƏ BUZA DÖNDÜ

Bəyaz, kövrək qar idim,
Üstümdə çox gəzdilər.
Qolumu, qabırğamı
Sındırdılar, əzdilər.

İməkləyir üstümdə
Avtobuslar, maşınlar.
Buza döndüm ki, qorxub,
Məni tapdamasınlar…

## QIŞ YOLLARI BAĞLAYIB

Qar ələyir buludlar,
Göydə nə çox bulud var!
Lopa-lopa qar yağır,
Göyün sözü var, yağır…
Yağdı, o qədər yağdı,
Hara baxsan, dümağdı…
Heç kəs yolun qarını

Kürümür ki, kürümür.
Gözünə dönüm qarın,
Ərimir ki, ərimir…
Qış yolları bağlayıb,
Gedənləri saxlayıb.
Küçələr dönüb buza,
Buzbuzadır, buzbuza…



## QIŞ GƏLİB AD GÜNÜMƏ

Ad günümün yolunu
Gözləyirəm nə vaxtdan.
Qonaqlarım gələcək
Yaxından, həm uzaqdan…

Təptəzə hədiyyələr
Üst-üstə qalanacaq.
Şamları söndürəndə
Mənə əl çalınacaq.

Heyf ki, arzularım
Qaldı mənim gözümdə.
Hara baxsan dümağdı,
Mat qalmışam özüm də.

Gələn kimi göstərdi
Kiçik çillə özünü.
Adam qardan, çovğundan
Aça bilmir gözünü.

Yollar tamam bağlanıb,
Bir bax mənim günümə.
Nənəm-babam gəlməyib,
Qış gəlib ad günümə…

## BU QAR NİYƏ ƏRİMİR

Maşınlar dəymir gözə,
Qar yolları bağlayıb.
Qış işə gedənləri
Bu gün evdə saxlayıb.

Bayıra çıxmır deyə,
Qırxmayıbdır üzünü -
Nəvə öz babasına
Zilləyibdir gözünü.

Gah çöldə yağan qara,
Gah saqqalıma baxıb,
O, gülür: - Babanın da
Üz-gözünə qar yağıb.

Çöldə qar suya döndü,
Nəvəm baxıb kirimir.
Deyir: - Bəs niyə sənin
Üzündə qar ərimir?!

## SƏXAVƏTLİ QIŞ

Hər yan bəmbəyaz, dümağ,
Qışdan artıq nə umaq?
O,bizdən şaxtasını,
Qarını əsirgəmir.
Səxavətlə xərcləyir,
Varını əsirgəmir.

## TƏPƏDƏ ƏYLƏŞƏN QIŞ

Axır ki, ilk qar yağdı,
Dağların başı ağdı.
Nə olsun ki, palçıqdı,
Yollar hələ açıqdı.
Kövşənlər gözləyir qar,
Ağarmağa ümid var.
Qış təpədə əyləşib,
Düzənləri seyr edir.
Təbəssümlə paltosuz
Gəzənləri seyr edir…

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. №